

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 29 (23.671)

*12 fevral 2021-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.

Dövlətimizin başçısı çıxışında Cənub Qaz Dəhlizinin inşasının başa çatdırılmasını tarixi nailiyyət kimi dəyərləndirərək bu münasibətlə iştirakçılara təbriklərini çatdırıb. Ölkəmizin başçısı əminliyini bildirib ki, birgə fəaliyyət davam edəcəkdir.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi layihəsinin bir çox parametrlər üzrə çox nadir layihə olduğunu, Azərbaycanın layihəyə 10 milyard dollar həcmində əhəmiyyətli maliyyə töhfəsi verdiyini, Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin hər dörd seqmentində – "Şahdəniz", Cənubi Qafqaz boru kəməri, TANAP və TAP-da iştirak etdiyini vurğulayıb.

İclasın açılış sessiyasında Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson, qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi və Azərbaycanın Energetika naziri Pərviz Şahbazov çıxış ediblər. Konsorsium üzvləri tərəfindən Cənub Qaz Dəhlizinin tamamlanmasına dair hesabat təqdim olunduqdan sonra nazirlər və nümayəndə heyətlərinin rəhbərləri məruzə ediblər.



## Elmi əsərlərinin nəşri ilə fərqlənən professor-müəllim heyəti mükafatlandırılıb




***Fevralın 11-də Naxçıvan Dövlət Universitetində Web of Science, Scopus və sahə indeksli bazalarda yer alan jurnallarda fəal iştirak edən müəllim heyəti ilə görüş keçirilib.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, ali təhsil ocağının dünya universitetləri ilə rəqabət imkanını təmin edə biləcək maddi-texniki bazası mövcuddur. 2020-ci ildə universitetin professor-müəllim heyətindən 55 əməkdaşın 67 elmi məqaləsi beynəlxalq elm bazalarında nəşr olunub. Bu elmi məqalələrin 12-si Web of Science, 7-si Scopus, 14-ü isə sahə indekslidir. Bu da onu göstərir ki, universitet əməkdaşları onlar üçün yaradılan əlverişli mühitdən bəhrələnib. Rektor bildirib ki, əməkdaşların nüfuzlu jurnallarda dərc etdirdiyi məqalələr ingilis, rus və türk dillərində olub. Bu məqalələr Rusiya, İsveçrə, Hindistan, Bolqarıstan, İngiltərə, Türkiyə, Ukrayna, Estoniya, Tailand, Çin, Polşa, Xorvatiya və Azərbaycan mərkəzli jurnallarda nəşr edilib.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov universitetin beynəlxalq əlaqələrinin genişlənməsindən danışıb və əcnəbi tələbələrin artım dinamikasını muxtar respublikanın dayanıqlı inkişafı, sosial həyat şəraiti, təhlükəsizlik mühitinin bəhrəsi olaraq dəyərləndirib. Xarici universitetlərlə ikili diplom layihəsi, tələbə-müəllim mobilliyinin ali təhsil ocağının beynəlxalq əlaqələr sistemində əhəmiyyətli rol oynadığı vurğulanıb, ali təhsil ocağının beynəlxalq reytinqdə layiqli yer tutması üçün kollektivin birgə səmərəli fəaliyyətinin əhəmiyyəti xüsusi qeyd edilib. Yaradılan şərait, qurulan infrastruktur, müəllimlərin elmi tədqiqatları və layihələri universiteti daim irəli aparmalıdır, – deyən Seymur Talıbov elmi məqalə dərc etdirməkdə fərqlənən müəllimləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Elmi tədqiqatların əlaqələndirilməsi bölməsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru Rza Məmmədov, Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov, Bələdiyyə və turizm kafedrasının müdiri, baş müəllim Flora Kərimova, Botanika ixtisası üzrə dissertant Aysel Heydərova yaradılan hərtərəfli şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Sonra elmi məqalələrin xarici elmi nəşrlərdə dərcinə görə fərqlənən müəllimlər universitet tərəfindən diplom və plaket ilə təltif olunublar. Həmin əməkdaşların əməkhaqqı kartlarına mükafat köçürülüb.

Tədbirdə professor-müəllim heyətinin beynəlxalq nəşrlərdə işıq üzü görmüş elmi əsərləri və patentləri sərgilənib.

**"Şərq qapısı"**

## Elmi-praktik konfrans keçirilib



Naxçıvan Müəllimlər İnstitutunda ali təhsil ocağının professor-müəllim heyəti, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi əməkdaşlarının və ümumtəhsil məktəblərinin psixoloqlarının iştirakı ilə "Məktəbdə psixoloji xidmətin müasir tələblər baxımından təşkili" adlı elmi-praktik konfrans keçirilib.

Konfransı giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov açaraq qeyd edib ki, institutda 15 bakalavriat, 5 magistratura və 5 doktorantura ixtisaslarında kadr hazırlığı ilə yanaşı, diplomdan sonrakı təhsilin həyata keçirilməsi işi də aparılır. Müəllimlərin ilkin hazırlığı, ixtisasartırma və təkmilləşdirilməsi prosesləri bir-biri ilə əlaqəli, kompleks şəkildə həyata keçirilir.

Diqqətə çatdırılıb ki, məktəbdə psixoloji xidmətin başlıca məqsədi uşaq, yeniyetmə və gənclərin psixoloji sağlamlığını qorumaqla onların təhsil müvəffəqiyyətinin artırılmasıdır. Məktəb psixoloqlarının işinin təkmilləşdirilməsinə yönəlmiş bu konfrans da məktəb psixoloqlarının işinin qurulmasına müasir baxışı özündə ehtiva edir.

Konfransda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək muxtar respublikanın bütün ümumtəhsil məktəblərində psixoloji xidmətin təşkili, ümumtəhsil məktəblərinin ixtisaslı psixoloq kadrlar ilə təmin olunması istiqamətində görülən işlərdən danışıb.

Qeyd edilib ki, hazırda ümumtəhsil müəssisələrində 200-ə yaxın psixoloq fəaliyyət göstərir ki, onun da 46-sı müsabiqə yolu ilə işə qəbul olunmuşdur. Psixoloq vəzifələrini tutanların əksəriyyəti uzun illərin təcrübəsinə malik olan müəllimlərdir ki, onların da Naxçıvan Müəllimlər İnstitutunda təşkil edilən psixoloq kurslarına cəlbi diqqətdə saxlanılmışdır.

Təhsil naziri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli Qərarı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində psixoloji xidmətin təşkili qaydaları" haqqında geniş məlumat verib.

Sonra institutun İxtisasartırma və yenidən hazırlanma üzrə prorektoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyevin, Pedaqogika və psixologiya kafedrasının müəllimi, dosent Salatın Hacıyevanın məruzələri dinlənilib və mövzu ətrafında müzakirələr aparılıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bir sıra qərarlar qəbul edib. Belə ki, "Naxçıvan Muxtar Respublikasında ictimai işlər növündə cəzaçəkən və ya ictimai işlər növündə inzibati tənbeh olunmuş şəxslərin elektron nəzarət vasitəsindən istifadə Qaydası" təsdiq edilmişdir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin, həmçinin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin işçilərinin maddi təminatı və sosial müdafiəsinin gücləndirilməsinə dair qaydaların təsdiq edilməsi haqqında qərarlar qəbul olunmuşdur. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası"nda dəyişiklik olunmuşdur. Dəyişikliyə əsasən prokurorluq işçisinə onun hər bir ailə üzvünə görə qulluq keçdiyi dövrdə müvəqqəti mənzilin kirayəsi üçün ödənilən müvafiq kompensasiyaların 50 faizi məbləğində əlavə pul kompensasiyası ödənilir.

Bununla yanaşı, 2021-ci il 9 fevral tarixli Qərara əsasən "Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi və müəllimlərin müsabiqə yolu ilə işə qəbulunun aparılması haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə gənc mütəxəssislərə kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqını ödəmək üçün verilən kompensasiyanın miqdarı 90 manat məbləğində müəyyənləşmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə də dəyişiklik olunmuşdur.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə müvafiq olaraq valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar arasından olan şəxslərə dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında təhsil aldıqları müddət ərzində dərslik və dərs ləvazimatlarının əvəzinə verilən müavinətin məbləği 50 manata qaldırılmış, eləcə də həmin şəxslərin dövlət, ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrini və AMEA-nı bitirdikləri zaman müvafiq təhsil müəssisəsinin və ya AMEA-nın xərclər smetası hesabına mövsümi paltar və ayaqqabı ilə təmin olunması üçün nəzərdə tutulmuş məbləğ 265 manat müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 11 fevral tarixli Qərarına uyğun olaraq "İcbari Tibbi Sığorta üzrə "Xidmətlər Zərfi"ndə nəzərdə tutulmayan, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tibb müəssisələri tərəfindən həyata keçirilən bir sıra tibbi xidmətlərin haqqı müəyyənləşdirilmişdir. Belə ki, Qərara əsasən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tibb müəssisələri tərəfindən həyata keçirilən tibbi xidmətlərdən "sürücülük vəsiqəsi üçün tələb olunan sağlamlıq haqqında arayış"ın ödənişi üçün 30 manat, "digər sağlamlıq haqqında arayışlar" üçün isə 15 manat məbləğində vəsait müəyyən olunmuşdur. Qərar imzalandığı gündən qüvvəyə minmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

# Nəqşicahan —

## *Azərbaycanın Şərqə açılan qapısı*

*Nəqşicahan – Azərbaycanın Şərqə açılan qapısı, müasirliklə qədimliyin vəhdətində böyüdükcə gözəlləşən diyar... 9 fevral 1924-cü ildə muxtariyyət verilən Naxçıvan inkişafının intibah dövrünü yaşayır. Tarixi İpək Yolunun üzərində yerləşən, xalqımıza məxsus milli-mənəvi, zəngin təbii sərvətləri ilə məşhur olan, ilk yaşayış məskənlərindən sayılan Naxçıvan tarixi şəxsiyyətləri, elm xadimləri, sənətkarları ilə də tanınır. Bu torpağın yetirməsi, dünya siyasətçiləri arasında müdrikliyi, uzaqgörənliyi ilə seçilən ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi, Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir:* ***“Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir”.***



Təbii sərvətləri, yerləşdiyi əlverişli coğrafi mövqeyi ilə yadellilərin diqqətini çəkən Naxçıvana sahib çıxmaq istəyənlər bu torpağın igid oğulları qarşısında təslim olmuş, bəd niyyətlərinə nail ola bilməmişlər. SSRİ-nin cənub sərhədi sayılan Naxçıvan Azərbaycanın Şərqə açılan qapısı kimi mühüm əhəmiyyət daşıyıb. Azərbaycan xalqını parçalayan Gülüstan, Türkmənçay müqavilələrindən fərqli olaraq Qars və Moskva müqavilələri ilə Türkiyəyə bağlanan Naxçıvanla eyni kökə, adət-ənənələrə malik qardaş ölkə ilə əsrlərdən bəri davam edən əlaqələr daha da möhkəmlənmişdir. Sovet hakimiyyəti dövründə Naxçıvanla bağlı münasibətlər birmənalı olmamışdır. Daşnakların təzyiqi ilə Naxçıvanın Ermənistana birləşdirilməsi xəbərindən narahat olan Mustafa Kamal Atatürk 1921-ci ildə Rusiya ilə Naxçıvan problemi ətrafında danışıqların aparılmasına nail olmuşdur. Bu münasibətlə onun Rusiyaya göndərilən nümayəndə heyətinə tapşırığı belə olmuşdur: ***“Naxçıvan türk qapısıdır. Bu xüsusu nəzəri-etibara alaraq əlinizdən gələni yapınız”.*** İmzalanmış Moskva anlaşmasında Naxçıvanın Azərbaycanın tərkibində qalmasına ilkin razılıq əldə olunur. Türkiyənin Qars şəhərində imzalanmış müqavilədə Moskvada əldə olunmuş razılıq təsdiqlənmiş və daha da möhkəmləndirilmişdir. Qars müqaviləsini imzalayan Türkiyə, Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan Naxçıvanın Azərbaycan Respublikasının tərkibində qalmasının zəruriliyini vacib hesab etmişlər. Beləliklə, 9 fevral 1924-cü ildə Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası təşkil olunmuşdur. Bu isə müstəqilliyə aparan tarixi nailiyyətlərdən biridir.

1990-cı ildə Naxçıvana dönüşü ilə ata-baba torpağının erməni işğalından qorunması üçün uzaqgörən siyasətinə və xalqla birliyinə arxalanaraq əsl vətəndaş fədakarlığı göstərən ulu öndər Heydər Əliyevin muxtar respublika Ali Məclisinin Sədri kimi müstəqilliyimizin əbədiliyi naminə həyata keçirdiyi islahatların hər biri gələcəyə hesablanmış tarixi missiyalardır. 17 noyabr 1990-cı ildə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti sessiyasına deputat kimi sədrlik edən görkəmli dövlət xadimi Heydər Əliyev “Naxçıvan MSSR”in adının dəyişdirilməsi, dövlət atributları sayılan Azərbaycan Respublikası Cümhuriyyətinin üçrəngli bayrağının, himn və gerbinin bərpası barədə qərarın qəbuluna nail olmaqla, muxtar respublikanın Ermənistanın işğalından xilası naminə tarixi addımlar atdı. Naxçıvanda olarkən ulu öndərin bütün Azərbaycan üçün gördüyü xidmətlərdən biri də respublikanın sərhədlərinin, Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi idi. 1992-ci ildə Qars müqaviləsinin təzələnməsini tarixi hadisə adlandıran, xəyanətkar, siyasi, tarixi baxışları ilə Azərbaycanın varlığına ağır zərbələr vuran AXC-Müsavat iqtidarında təmsil olunan səriştəsizlərin Naxçıvanın muxtariyyətinin ləğvi ilə bağlı sərsəmləmələrinə etirazını ***“Mən ilk dəfə bununla 1992-ci ildə Naxçıvanda işləyərkən rastlaşdım. O vaxta qədər mən təsəvvür edə bilməzdim ki, hansısa bir azərbaycanlı Naxçıvanın muxtariyyətinə müxalif çıxsın”*** sözləri ilə bildirən ulu öndər Heydər Əliyev 1924-cü ildə əldə edilmiş o nailiyyəti tarixi hadisə adlandırmışdır: ***“İndi görürsünüz, tarixi nöqteyi-nəzərdən çox ağır, gərgin bir dövrdə Azərbaycan torpaqlarını qoruyub saxlamaq, Zəngəzur Ermənistana veriləndən sonra Naxçıvanı Azərbaycanın ayrılmaz bir hissəsi kimi saxlamaq üçün böyük nailiyyət əldə edilmiş, Naxçıvana muxtariyyət verilmişdir. Amma bu gün xalq, millət, dövlət qarşısında heç bir xidməti, heç bir səriştəsi olmayan cılız insanlar durub Naxçıvanın muxtariyyətinin əleyhinə çıxırlar. Hansı mənəvi haqla? Hansı hüquqla?”*** Ümummilli lider Heydər Əliyev iki qardaş xalq arasındakı münasibətlərin əbədiliyini ***“Bir millət, iki dövlət”*** sözləri ilə təsdiqlədi. ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq”*** söyləyən ulu öndərin muxtar respublikadakı fəaliyyətini, xidmətlərini Azərbaycanın müstəqilliyinin qorunmasına yönəlmiş önəmli dövr adlandıran Prezident cənab İlham Əliyevin bildirdiyi kimi, ulu öndər Naxçıvana diqqətlə yanaşırdı: ***“Ona görə yox ki, burada anadan olmuşdu, bura onun Vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü”.***

Ötən əsrin sonlarında Ermənistan tərəfindən blokadaya alınan Naxçıvana ulu öndərin şəxsi nüfuzu sayəsində qardaş Türkiyə və İrandan verilən enerji, göndərilən ərzaq və sənaye məhsulları hesabına çətin vəziyyətdən çıxan naxçıvanlılar Türkiyə ilə Naxçıvanı birləşdirən “Ümid” körpüsü vasitəsilə qardaş ölkəyə gediş-gəliş imkanı qazandılar. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik Naxçıvan Beynəlxalq Hava Limanı, Bakıda isə muxtar respublikanın nümayəndəliyi açıldı.

***“Naxçıvan qədim Azərbaycan diyarıdır, qədim tarixə, mədəniyyətə malik olan diyardır, eyni zamanda müasir şəhərdir… Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verib”*** söyləyən Prezident cənab İlham Əliyevin bu qədim diyara göstərdiyi diqqət və qayğı sayəsində muxtar respublika gündən-günə çiçəkləndi, inkişaf etdi. Bütün sahələri əhatə edən quruculuq, abadlıq işləri sayəsində müasirliklə qədimliyin vəhdətində böyüyən, böyüdükcə gözəlləşən Naxçıvan intibah dövrünü yaşayır. Ulu öndərin yetirməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Vətənə, torpağa bağlılığı, ən əsası isə fədakarlığı nəticəsində Naxçıvan Avropa şəhərləri ilə müqayisə oluna biləcək səviyyədə modernləşib. Tarixi abidələri, müalicəvi əhəmiyyətli suları, buz bulaqları, meşələri, təmiz havası ilə qonaqları valeh edən muxtar respublika füsunkarlığı ilə göz oxşayır. Memarlıq abidələri olan Möminə xatın, Qarabağlar, Yusif Küseyir oğlu türbələrində, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində aparılan təmir bərpa işləri, Nuh Peyğəmbərin qəbrinin üstündə ucaldılan abidə mənəvi irsimizə sahiblik nümunəsidir. Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin ev-muzeyləri tanınmış şəxsiyyətlərə ümumxalq hörmətidir. Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Görüşünün Şərq aləmində tanınan muxtar respublikada keçirilməsi, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan olunması dünya sivilizasiyasına önəmli töhfələr vermiş, memarlıq abidələri bir çox ölkələri bəzəyən Əcəmi sənətinə dəyərdir.

Naxçıvan iqtisadiyyatının ildən-ilə diqqəti cəlb edən səviyyədə inkişaf etməsi muxtar respublika rəhbərinin fədakarlığının, görülən işə məsuliyyətlə yanaşmanın məntiqi nəticəsidir. Təbii sərvətlərdən səmərəli istifadə ilə aparılan tikinti-quruculuq işləri bu qədim diyara özgə görkəm verir. Abadlıq işlərində yerli materiallardan istifadə olunur. Yaradılan yeni sənaye müəssisələri, sosial obyektlər, özəl şirkətlər hesabına işsizlik minimuma endirilib. İstehsal prosesi ən müasir texnologiyalar əsasında təkmilləşən “Badamlı”, “Sirab” Mineral Sular zavodlarının məhsulları MDB ölkələrinə ixrac olunur. Duzdağ Fizioterapiya Mərkəzinin xidmətindən istifadə edən xəstələr burada yaradılan şəraitdən razılıqlarını bildirirlər. Sistemli və konseptual proqramlar əsasında tətbiq olunan yeniliklər muxtar respublika sakinləri tərəfindən razılıqla qarşılanır.

Ölkəmizdə insanların məşğulluğu ilə bağlı həyata keçirilən tədbirlər, yeni iş yerlərinin yaradılması dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını təsdiqləyir. Məşğulluğun yüksək səviyyədə həlli üçün yeni yollardan, ehtiyat mənbələrindən istifadə olunur. Naxçıvan Muxtar Respublikasında da sosial-yönümlü iqtisadi inkişafın təmin olunması ilə bağlı həyata keçirilən tədbirlər içərisində əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər mühüm yer tutur. Səmərəli məşğulluğun inkişafına yönəldilən siyasi, iqtisadi, sosial və institusional mühitin yaradılması əsasında məşğulluq sahəsində prioritet istiqamətlərin öyrənilməsi əhalinin rifahının yüksəldilməsində mütərəqqi əhəmiyyətə malikdir. Əhalinin sosial həyat tərzinin yaxşılaşdırılmasında önəmli yeri olan məşğulluq siyasətinin həyata keçirilməsi və uğurla nəticələnməsi muxtar respublika rəhbərinin daim diqqətdə saxladığı mühüm sosial məsələdir. Məşğulluq strategiyasının həyata keçirilməsi üzrə aparılan islahatlar nəticəsində müxtəlif kateqoriyalara məxsus insanlar iş yerləri ilə təmin olunurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlər uğurla nəticələnmişdir. Proqramın tətbiqi ilə muxtar respublikada 12 min 479 yeni iş yeri açılmış, əmək resursları əhalinin istəklərinə və daxili bazarın tələbinə uyğunlaşdırılmış, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbat sorğulara əsasən müəyyənləşdirilmiş və həllini tapmışdır. 2016-2020-ci illərdə məşğulluq orqanları tərəfindən, əsasən, gənclər olmaqla, 14 min 699 nəfər vakant iş yerlərinə göndərilmişdir. Kəndlər də daxil olmaqla, keçirilən əmək yarmarkalarına müraciət edənlərin əksəriyyətinin istəkləri yerinə yetirilmişdir. Aktiv məşğulluq tədbirləri nəticəsində yeni iş yerlərinin yaradılması məqsədilə sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi xüsusi önəm daşıyır. 2016-2020-ci illərdə kiçik və orta sahibkarlığın inkişafı məqsədilə irəli sürülən layihələrin, təkliflərin reallaşmasına lazımi səviyyədə maliyyə dəstəyi göstərilmiş, yeni işə başlamaq istəyənlər üçün müvafiq kurslar təşkil edilmişdir. Naxçıvan Biznes Mərkəzi tərəfindən sahibkarlığa yeni başlamaq istəyənlər üçün kurslar, seminarlar, təlimlər təşkil edilmiş, fərdi qaydalara uyğun məsləhətlər aparılmışdır. Məşğulluq xidməti orqanlarının əməkdaşları tərəfindən ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan şagirdlərə əmək bazarının tələbinə uyğun ixtisaslar barədə məlumatlar verilmişdir. Həyata keçirilən bu islahatların təməlində isə Prezident cənab İlham Əliyevin daimi tövsiyəsi olan insana diqqət və qayğı amili dayanır. Gənclərin peşə təhsilinə diqqət artırıldığı kimi, evdar qadınların məşğulluğu da təmin edilir. Beləliklə, ailə büdcəsinin bazarın təklif və tələbatına uyğunlaşdırılması kimi günün aktual məsələsi olan problemlər vaxtında həllini tapır.

İcrası uğurla həyata keçirilən Dövlət proqramlarının məntiqi davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın təsdiqi bu istiqamətdə görülən tədbirlərin davamlılığını təmin edəcəkdir. Bu əminlik onun nəticəsidir ki, son illərdə muxtar respublikada irimiqyaslı və hərtərəfli iqtisadi islahatlar uğurla reallaşdırılmış, həyata keçirilən davamlı tədbirlər sayəsində əlverişli biznes və investisiya mühiti formalaşdırılmışdır. Müasir zəmanəmizin bütün çağırışlarına tam cavab verən çoxsaxəli sənayenin dinamik inkişafında xüsusi önəm daşıyan yeni müəssisələr fəaliyyətə başlamışdır. Sevindirici haldır ki, daxili bazarın tələbatını ödəmək qabiliyyətində olan, ixracyönümlü məhsul istehsal edən müəssisələr çoxluq təşkil edir. Sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizmlərinin və təşviq alətlərinin tətbiqi, sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının sadələşdirilməsi özəl bölmənin inkişafını stimullaşdırmaqla yanaşı, istehsal prosesi zamanı sərf olunan vəsaitlərin azalmasına imkan yaradır. Bu da, öz növbəsində, məhsulun maya dəyərinin aşağı düşməsini təmin edir, rəqabətqabiliyyətliliyi yüksəldir.

Muxtar respublikada aqrar sahənin inkişafına göstərilən diqqətin nəticəsidir ki, əhalinin kənd təsərrüfatı məhsullarına tələbatı daxili imkanlar hesabına ödənilir. Süd məhsullarının istehsalı və qablaşdırılması, quşçuluq, arıçılıq, bağçılıq, əkinçilik inkişaf edir. Fermerlərin tələbatdan artıq istehsal etdikləri kənd təsərrüfatı məhsullarının uzun müddət saxlanılması üçün soyuducu anbarların, əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixanaların yaradılması nəticəsində əhali bütün mövsümlərdə keyfiyyətli ərzaq məhsulları ilə təmin olunur. Sadalananlar muxtar respublikanın bugünkü iqtisadi inkişafına xronoloji, qısa nəzərdir. Naxçıvanın sabahı daha gözəl olacaqdır. Bunun üçün etibarlı təminat vardır. 44 günlük Vətən müharibəsinin bitməsi ilə əlaqədar ötən il noyabr ayının 10-da imzalanan üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunacaq. Dəhliz region dövlətlərinin istifadəsi üçün zəmin yaradacaq. Ən əsası isə Azərbaycanın Türkiyə ilə birbaşa əlaqəsi olacaq. Həmin dəhlizin bərpası ilə region dövlətləri olan Azərbaycanın, Türkiyənin, Rusiyanın, İranın, istəyərsə Ermənistanın birgə istifadəsi bölgədə yeni reallıq və iqtisadi əməkdaşlıq üçün sağlam mühit formalaşdırılır. Yaradılacaq bu şərait, ilk növbədə, muxtar respublikanın iqtisadi, sosial inkişafı üçün şaxələnmiş, etibarlı təminatdır.

**Xuraman İSMAYILQIZI**
***“İki sahil”,***
***9 fevral 2021-ci il***

Dövlət proqramı icra olunub

## Sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafı təmin edilmişdir

***"Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir"***, *– deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlarla bağlı qanunvericilik sistemində yeni təminatların təsbit edilməsi dövlətin uşaqlara olan diqqətinin göstəricisi olmaqla yanaşı, həm də onların cəmiyyətə inteqrasiyasına təkan verən amildir.*

Naxçıvan Muxtar Respublikasında da uşaqlara göstərilən hərtərəfli qayğı həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən birini təşkil edir. Uşaqlara xidmət edən təhsil, səhiyyə, mədəniyyət və digər müəssisələrin sayı ildən-ilə çoxalır, irimiqyaslı infrastruktur layihələri icra edilərkən uşaqların mənafelərinin təmin olunması ön planda tutulur. Onlara göstərilən bu diqqət muxtar respublikada gələcək sağlam cəmiyyətin möhkəm təməllər üzərində qurulmasından xəbər verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var".***



Naxçıvanda uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə müxtəlif Dövlət proqramlarının qəbul edilməsi bu sahədə yeni nailiyyətlərin qazanılmasına imkan verir. 2014-2015-ci illəri əhatə edən müvafiq proqramın icrası başa çatdıqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi görülən işlərin davamlı xarakter almasına səbəb olmuşdur. Proqramın məqsədi sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin edilməsi, inklüziv təhsilə keçid imkanlarının artırılması, məsafədən təhsilin əhatə dairəsinin genişləndirilməsindən ibarət olmuş və ötən müddətdə bu məqsədlərə nail olmaq üçün müəyyən edilmiş tədbirlər uğurla həyata keçirilmişdir.

Dövlət proqramının icrası məqsədilə 25 aprel 2016-cı il tarixdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində diqqət zəifliyi olan və hiperaktiv uşaqlar üçün müasir tədris vasitələri ilə təmin olunmuş təlim-bərpa otağı istifadəyə verilmiş, fərdi, ailə və uşaq istiqamətli psixoloji dəstək xidməti yaradılmışdır. İş təcrübəsinin artırılması üçün mərkəzin mütəxəssislərinin Bakı şəhərində təşkil olunan ixtisasartırma kurslarına göndərilməsi təmin edilmişdir. 2016-2020-ci illərdə mərkəzin psixoloji dəstək xidmətinə 225 uşaq cəlb olunmuş, hər bir uşaqla bağlı konsultasiya işi aparılmış, fərdi proqram hazırlanmışdır.

Sağlamlıq imkanları məhdud uşaqların real həyata uyğunlaşmasında və müstəqil yaşam vərdişlərinə yiyələnməsində məktəbəqədər təhsil müəssisələrinin əvəzolunmaz rolu vardır. Belə müəssisələrdə müvafiq kateqoriyadan olan uşaqların sosial, idraki, estetik inkişafı, sadə əmək vərdişlərinə, zəruri həyati bacarıqlara, sosial, milli və ümumbəşəri dəyərlərə yiyələnməsi təmin edilməkdədir. Proqramın icra müddəti ərzində muxtar respublikada məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barəsində yaradılmış məlumat bazasının mütəmadi olaraq yenilənməsi təmin olunmuş, bu sosial kateqoriyanın nümayəndələrinin əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə cəlb olunmaları üçün işlər davam etdirilmişdir. 2016-2020-ci illərdə sağlamlıq imkanları məhdud 59 uşaq məktəbəqədər təhsil müəssisələrində, 98 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında, nitq qüsuru olan 278 uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölmələrində tədrisə cəlb edilmişdir. Dövlət proqramının icrasına uyğun olaraq Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə cəlb edilən 23 sağlamlıq imkanları məhdud uşaqla fərdi qaydada reabilitasiya yönümlü məşğələlər aparılmışdır.

Məktəbəqədər təhsil müəssisələrində müvafiq sosial kateqoriyaya aid olan uşaqların fiziki, əqli və yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün müasir təlim üsullarının tətbiqi onlarda davranış pozuntularının aradan qaldırılması və ətraf aləm haqqında biliklərin formalaşmasını təmin etmək məqsədi daşımışdır. Proqramın icrası müddətində məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlar üçün təşkil olunan tədris prosesində "Sual-cavab", "Beyin həmləsi", "Əşyaların qeyri-adi ifadəsi", "Şəkillərlə öyrənirəm", "Səhnələşdirmə", "Tap-tapmaca" kimi təlim üsulları tətbiq edilmişdir. Həmin müəssisələrdə təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması da diqqət mərkəzində olmuş, bu məqsədlə təşkil edilən 15 kursa 253 müəllim, metodist və tərbiyəçi cəlb olunmuşdur. Qeyd etmək lazımdır ki, bu sosial kateqoriyanın nümayəndələrinin məktəb mühitinə hazırlanması üçün məktəbəqədər təhsil müəssisələrində təşkil olunan təlim-təhsil işləri mühüm önəm kəsb edir.

Belə uşaqların əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasında isə ümumtəhsil məktəblərində aldıqları təhsil həlledici rol oynayır. Təhsil sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunmasının ən mühüm vasitəsi hesab olunur. Onların ümumi inkişafının təmin edilməsi fiziki və əqli xüsusiyyətlərinə uyğun olaraq təhsil almalarından çox asılıdır. Dövlət proqramında bu qəbildən olan uşaqların müxtəlif statuslu təhsil müəssisələrinə cəlb edilməsi ilə bağlı mühüm tapşırıqlar nəzərdə tutulmuşdu. Bu tapşırıqların icrası diqqət mərkəzində saxlanılmış, 2016-2020-ci illərdə mövcud potensialları nəzərə alınaraq 372 sağlamlıq imkanları məhdud uşaq ümumtəhsil müəssisələrinə cəlb edilmişdir. Proqram çərçivəsində Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə, ümumilikdə, 14 uşaq cəlb olunmuşdur.

Tədrisin ənənəvi forması ilə yanaşı, distant dərslərin də təşkili uşaqların keyfiyyətli təhsil alması üçün çoxşaxəli fəaliyyətin həyata keçirilməsi deməkdir. Bu fəaliyyət uşaqların tədris prosesində müasir texnoloji yeniliklərdən faydalanması üçün geniş şərait yaradır. Müxtəlif fiziki və əqli xüsusiyyətlərə malik məhdud fiziki imkanlı uşaqlar üçün distant dərslərin təşkil edilməsinin əhəmiyyəti daha çoxdur. Bunlar əsas götürülərək Dövlət proqramında bu kateqoriyadan olan uşaqların distant dərslərə cəlb edilməsini nəzərdə tutan tapşırıqlar müəyyən olunmuşdur. Bu tapşırıqların icrası istiqamətində 2016-2020-ci illərdə əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən, lakin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 25 sağlamlıq imkanları məhdud uşaq distant tədrisə cəlb edilmişdir. Həmçinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə məhdudiyyətli şəxslər üçün fəaliyyət göstərən distant dərslərdə 13 uşağın iştirakı təmin olunmuşdur.





Ümumtəhsil müəssisələrində təhsil alan və distant tədrisə cəlb olunmuş məhdud fiziki imkanlara malik uşaqların muxtar respublikanın muzeyləri ilə 65, Şahmat Mərkəzi ilə 54, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə 39 interaktiv dərsdə iştirakının təmin edilməsi onlarda yeni tarixi, mədəni və digər xarakterli təsəvvürlərin formalaşmasında önəmli rol oynamışdır.

Muxtar respublikamızda müvafiq sosial kateqoriyaya aid uşaqlara xüsusi həssaslıqla yanaşılması, yaşıdları ilə bərabər təhsil imkanlarının yaradılması onların cəmiyyətə asanlıqla inteqrasiya olunmasını təmin edir. Dövlət proqramının icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların təminatını nəzərdə tutan və ənənəvi xarakter alan tədbirlərin mütərəqqi əhəmiyyəti vardır. Proqramın icrası müddətində hər il bu məqsədlə belə uşaqlarla görüşlər keçirilmiş, onlar məktəbli geyimi, dərs ləvazimatları və qış geyimi ilə təmin olunmuşlar. Ümumilikdə, 319 uşağı əhatə edən bu tədbirlər sağlamlıq imkanları məhdud uşaqlara göstərilən qayğının bariz nümunəsidir.

Bu sosial kateqoriyanın nümayəndələri üçün təşkil olunan tədris prosesinin səmərəliliyində müəllim amili həlledici rol oynayır. Uşaqların təhsil vasitəsilə cəmiyyətə inteqrasiyasının təmin edilməsinə onların tədrisi ilə məşğul olan kadrların pedaqoji hazırlığı və təcrübəsi mühüm təsir göstərir. Bu məqsədlə Dövlət proqramında müəyyən edilmiş tapşırıqların icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı ibtidai sinif müəllimləri, məktəb psixoloqları və distant tədris üzrə pedaqoji kadrlar üçün 8 seminar təşkil edilmişdir. Həmin seminar və konfranslarda, ümumilikdə, 898 ibtidai sinif müəllimi, məktəb psixoloqu və distant tədris üzrə pedaqoji kadrların iştirakı təmin olunmuş, 200-dən çox elektron vəsait hazırlanaraq məktəblərə paylanmışdır. Həmçinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin mütəxəssislərinin iş təcrübəsini artırmaq məqsədilə 24 təlim keçirilmiş, mərkəzin 9 mütəxəssisi Bakı şəhərində keçirilən ixtisasartırma kurslarında iştirak etmişdir. Məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-defektoloqu və müəllim-psixoloqu Bakı şəhərində fəaliyyət göstərən Müasir Psixologiya Mərkəzinin mütəxəssislərinin onlayn şəkildə təşkil etdikləri "İnkişaf və yaş psixologiyası" adlı ixtisasartırma kursunda sertifikat almışlar.

Sağlamlıq imkanları məhdud uşaqların müxtəlif sahələr üzrə qabiliyyətlərinin aşkar olunması onların cəmiyyətə inteqrasiyasında böyük əhəmiyyətə malik stimullaşdırıcı tədbirdir. Uşağın malik olduğu fərqləndirici qabiliyyətin inkişafı üçün çalışmasına yaradılan şərait onun daha da həvəslənməsinə və yaşıdları ilə faydalı rəqabət apara bilməsinə səbəb olur. Proqramın icrası müddətində bacarıq və maraqları nəzərə alınaraq sağlamlıq imkanları məhdud 147 uşaq musiqi məktəblərinə, 265 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, 532 uşaq muxtar respublikada fəaliyyət göstərən idman məktəblərinə cəlb edilmişdir. Həmçinin bu dövrdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində kompüter, artterapiyası kursları, kinekt oyunları, musiqi və əmək terapiyası otaqları fəaliyyətini davam etdirmişdir. Artterapiyaya cəlb edilən uşaqlar üçün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən ustad dərsləri keçilmişdir. Dövlət proqramının icrası məqsədilə mərkəzdə təşkil edilən məşğələlərə, ümumilikdə, 376 uşaq cəlb olunmuşdur. Görülən işlər sağlamlıq imkanları məhdud uşaqların müxtəlif istiqamətlər üzrə bacarıqlarının üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edir.

Bu bacarıqların aşkar edilməsinin digər mühüm vasitəsi isə məhdud fiziki imkanlara malik uşaqların asudə vaxtının səmərəli təşkili üçün tədbirlərin keçirilməsidir. Proqramın icrası müddətini əhatə edən tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə Naxçıvan şəhərində muzeylərə, tarix-memarlıq abidələrinə, istehsal və emal müəssisələrinə ekskursiyalar təşkil edilmiş, yarışların, sərgilərin və müsabiqələrin keçirilməsi, film və tamaşaların nümayişi diqqətdə saxlanılmışdır. 2016-2020-ci illərdə bu sosial kateqoriyanın nümayəndələri üçün 55 rəsm, 40 şeir, 24 inşa, 22 yaradıcılıq, 14 bilik müsabiqəsi, 253 idman tədbiri, 2 ekskursiya, 1 solo konsert, 1 onlayn görüş, 18 sərgi, 11 tamaşa və səhnəcik təşkil olunmuş, 610 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq "Yay məktəbi" çərçivəsində sağlamlıq imkanları məhdud 136 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmişdir.

Bu sosial kateqoriyadan olan uşaqlarla tədris prosesində maarifləndirici görüşlərin keçirilməsi, bu mütərəqqi prosesdə iştirak edən müəllim və valideynlərin düzgün istiqamətləndirilməsi görülən işlərin faydalılıq səviyyəsini yüksəldən vacib amildir. Proqramın icrası müddətində məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı komissiya tərəfindən təhsil müəssisələrində monitorinqlər aparılmış, valideyn, şagird və müəllimlərlə 19 maarifləndirici görüş keçirilmişdir.

Dövlət proqramının icrasına uyğun olaraq maarifləndirmə məqsədilə kütləvi informasiya vasitələrinin imkanlarından da istifadə olunmuş, Naxçıvan Dövlət Televiziyasında "Sosial həyat", "Həyat davam edir", "Baxış bucağı", "Günün sözü", "Günaydın" proqramları üçün 128, Naxçıvan Dövlət Radiosunda "Nahar vaxtı", "Sosial həyat", "Cəmiyyət və inkişaf", "Ailə və uşaq", "Həyata dair" proqramları üçün 100-dən çox süjet və veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 47 yazı dərc olunmuşdur.

*Beləliklə, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası müvafiq kateqoriyadan olan uşaqların inklüziv təhsilə cəlbi və onların sosial müdafiəsinin daha da gücləndirilməsi sahəsində əldə edilən uğurların sayının artmasına səbəb olmuşdur.*

**"Şərq qapısı"**

## Təlimlər keçirilir

Muxtar respublika gömrük orqanlarının əməkdaşları üçün "Avtonəqliyyat vasitələri üzərində gömrük baxışının aparılması" mövzusunda təlimlərə start verilib. Naxçıvan gömrük sistemində təkmilləşmə və ixtisaslaşma proqramı çərçivəsində təşkil olunan təlimlərə nəqliyyat vasitələri üzərində aparılan gömrük baxışının səmərəliliyini artırmaq məqsədilə Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Şəhər Gömrük idarələrində yaradılmış müayinə qruplarında yer alan əməkdaşlar cəlb edilib.

2-8 fevral 2021-ci il tarixlərdə keçirilmiş ilk təlimdə 9 əməkdaş iştirak edib. Seminar-məşğələləri komitənin əməkdaşları Mahir Orucov, Əkrəm Məmmədov, Emin Eylazov və Rahil Tahirli aparıblar. Əməkdaşlar nəqliyyat vasitələri – TIR, soyuduculu yük maşını, minik avtomobili və avtobusda gizlədilmiş şərti qaçaqmalçılıq predmetlərini texniki nəzarət vasitələrindən də istifadə etməklə aşkarlamaq üçün praktik məşğələlərə cəlb olunublar.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli təlimin son günündə nəqliyyat vasitələri üzərində aparılan gömrük yoxlamasını izləyib və yekun qiymətləndirmə edilib. Təlim iştirakçılarına sertifikatların təqdim olunması mərasimində çıxış edən komitə sədri muxtar respublika gömrük sistemində ardıcıl olaraq həyata keçirilən təkmilləşmə və ixtisaslaşma proqramının gömrük işinin keyfiyyətinin artırılması, qaçaqmalçılığa qarşı qətiyyətli mübarizə aparılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

Qeyd edək ki, fevralın 9-da daha 10 əməkdaşın iştirakı ilə növbəti təlimə start verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*Babası Hüseyn müəllimlə neçə illər əvvəl öz doğma yurd yerində – Şərur rayonunun Püsyan kəndində tanış olmuşam. Bir ziyalı kimi hamının hörmət bəslədiyi Hüseyn Baxşəliyev həm də el ağsaqqalıdır. Şəhid Məmməd Zamanlını doğulduğu kənddə torpağa tapşırarkən yenidən görüşdük. İgid eloğlumuzun babası olduğunu elə orada öyrəndim...*

*Əfsanəyə dönən ömürlər*

## Ölüm sevinməsin qoy...

### *Çünki bu ölüm Məmməd kimi qəhrəmanlarımızı şəhidlik zirvəsinə ucaltdı*

1998-ci ildə dünyaya göz açmışdı. İki bacının bir qardaşı idi. Kənd tam orta məktəbinin IX sinfini bitirdikdən sonra Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə daxil olmuşdu. Bu məktəblə əlaqəsi olanlar yaxşı bilirlər ki, burada yüksək hərbi nizam-intizam var. Yaxşı oxumaq, hərbin ilkin sirlərinə yiyələnmək, gələcəkdə bacarıqlı, qabiliyyətli hərbçi olmaq üçün hərtərəfli şərait yaradılıb. Haşiyə çıxaraq onu da deyim ki, 2001-ci ildən 2020-ci ilə qədər liseyi 3500-dən çox məzun bitirib. Onların 124-ü xarici ölkələrdə ali hərbi (Türkiyə, Rusiya, İtaliya) təhsil alıb, 95-i (Türkiyə, Rusiya, Cənubi Koreyada) təhsillərini davam etdiriblər. Silahlı Qüvvələrimizdə xidmət edən məzunlardan bir çoxunun ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalması burada hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə formalaşdırılmasının ifadəsidir. Onların şərəfinə liseydə guşə düzəldilib.

2015-ci ildə həmin liseyi uğurla başa vuran Məmməd Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur, 2019-cu ildə buranı bitirir, leytenant rütbəsi ilə Beyləqan rayonunda hərbi artilleriya üzrə xidmətə başlayır. İlyarıma qədər burada qulluq edir. Silahlı Qüvvələrin başlıca sahələrindən biri olan artilleriyanın orduda tutduğu yeri yaxşı bildiyi üçün öz ixtisasını həm nəzəri, həm də təcrübi cəhətdən dərindən öyrənməyə səy göstərir. Təlim-məşq toplantılarında fəallığı diqqətdən yayınmır. Ancaq Məmməd və onun zabit yoldaşları, əsgərlər Aprel döyüşlərinin, Günnüt zəfərinin davamını gözləyirdilər. Nəhayət, o gün də gəlib yetişdi.

İyul və avqust aylarında olan təxribatlara yerindəcə cavab verən, diversiya qrupunu zərərsizləşdirən, qrupun başçısını ələ keçirən Silahlı Qüvvələrimiz 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutması ilə "Torpaq, uğrunda ölən varsa, Vətəndir!" qətiyyəti ilə əks-hücuma başladı. Bu hücumda artilleriyaçılarımız da öz sözlərini dedilər.



Məmmədin komandir olduğu bölüyün artilleriyaçıları ərazilərimizin işğaldan azad olunmasında əsl qəhrəmanlıq və şücaət göstərdilər. Məhz bu qəhrəmanlıq və şücaət həmvətənlərimizin torpaq həsrətinə, yurd nisgilinə son qoydu...

Doğma Vətəninə qəlbən bağlı olan, onun bütövlüyünü görmək istəyən, neçə illərdir, içini yandırıb-yaxan bu arzunun reallaşması Məmmədin şəhidlik zirvəsinə ucalması ilə nəticələndi...

Şəhidimizi torpağa tapşırandan sonra Məmmədin təhsil aldığı məktəbin müəllimləri ilə söhbətləşdik. Əlaçı, intizamlı, yoldaşcanlı, səmimi bir şagird kimi xatırlandığını hiss etdim. Onunla bağlı bir neçə xatirə söylədilər. Məmməd Zamanlının ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülməsi müəllimlərinin də böyük sevincinə səbəb olub...

Elə həmsöhbət olduğum qonşuları, qohumları da Məmmədin qəhrəmanlığından qürurla danışdılar. Nəşini Naxçıvana gətirən yoldaşlarından birinin –zabit Əhməd Məmmədovun söhbəti isə məndə böyük qürur yaratdı:

– Məmməd həm döyüşür, həm də döyüş meydanındakı yaralıları oradan uzaqlaşdırmaq, sakit bir guşəyə aparmaq üçün əlindən gələni edirdi. Güllə qabağında bunu etmək ən böyük şücaət, dosta sədaqət, doğulduğu torpağa məhəbbət idi, – bu sözləri Bakıda Ali Hərbi Məktəbdə birgə təhsil aldığı zabit yoldaşı deyir və əlavə edir:

– Naxçıvanlılarda olan bu keyfiyyətləri mən ilk olaraq tələbəlik dövrümüzdə, bir qədər sonra döyüşlərdə, sonra isə ilk şəhidlərini qarşılayan Naxçıvan Hava Limanında gördüm. Aeroportda, necə deyərlər, iynə salmağa yer yox idi. Muxtar respublika rəhbərindən tutmuş sıravi naxçıvanlıya qədər – hələ onların içərisində gördüyüm uşaqlar – şəhidləri necə qarşılayırdılar. Hava limanından çıxıb şəhərə, şəhərdən Şərura qədər gördüklərimi, çox çətin ki, unudam. Elə bu, Naxçıvanın, doğrudan da, qəhrəmanlar torpağı, qəhrəmana böyük ehtiram göstərən bir yurd yeri olduğunun sübut edir.

Yadıma ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sözləri düşür: ***"Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerində oturdur, düşməni torpaqlarımızdan qovur canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır".***

Bu gün ərazi bütövlüyümüz təmin olunub, əsgər və zabitlərimizin qəhrəmanlıqları dillərdə gəzir və artıq şərəfli missiyamız tarixdə öz yerini tapıb, ədalət zəfər çalıb. Bu zəfəri, bu tarixi Qələbəni xalqımıza siz qazandırmısınız – öz şirin canınızdan keçməklə. Müstəqilliyimizə, dövlətçiliyimizə sədaqət göstərməklə. 30 ildir ki, ürəklərimizdə qaysaq bağlamış arzumuza yetişdirməklə.

Ona görə də ruhun şad olsun, Məmməd!.. Sənin və sənin kimi şəhadətə ucalmış oğullarımız həmişə bu xalqın qəlbində yaşayacaqsınız.

Böyük şairimiz Səməd Vurğunun "Ölüm sevinməsin qoy" şeirini xatırlayıram:

*Ölüm sevinməsin qoy,*
*ömrünü vermir bada*
*Sevərək yaşayanlar,*
*sevilərək ölənlər...*

**✍ Muxtar MƏMMƏDOV**

## Teleradioların fəaliyyəti diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası 2021-ci ilin yanvar ayında teleradioların fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin muxtar respublikada fəaliyyət göstərən teleradiolarda icrasını diqqətdə saxlamışdır.

Şura yanvar ayında teleradiolarda texniki və yaradıcılıq baxımından keyfiyyətin yüksəldilməsinə xüsusi diqqət göstərməklə yanaşı, həm də teleradioların monitorinqini aparmışdır. Yanvar ayının 13-də şura tərəfindən "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunda monitorinq müzakirləri keçirilmişdir.

Aparılan monitorinqlərin nəticələri göstərir ki, 2021-ci ilin yanvar ayında Naxçıvan Dövlət Televiziyasının öz teleməhsulları efirin 72 faizini əhatə etmişdir.

Əvvəlki aylarda olduğu kimi, yanvar ayında da vətənpərvərlik mövzusu diqqət mərkəzində olmuş, bununla yanaşı, televiziyada digər mövzulara da müraciət edilmişdir.

Şura Naxçıvan Dövlət Radiosunun efirini mütəmadi olaraq izləmiş, radioda fəaliyyət göstərən ədəbi-bədii və ictimai-siyasi redaksiyaların fəaliyyətini müqayisəli şəkildə təhlil etmişdir. Radio yanvar ayı ərzində 611 saat efirdə olmuşdur. Ümumi efirin 46 faizini radionun öz istehsalı olan verilişlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Hazırda "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımın həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini muxtar respublikanın təhsil müəssisələri ilə qarşılıqlı əlaqədə davam etdirir.

Ay ərzində 5 videoçarx və 7 teleanons hazırlanmışdır ki, bu da efirin 1 faizini təşkil edib. Digər televiziya kanallarının istehsalı olan 6 televiziya və sənədli film də ilk dəfə efirə təqdim olunmuşdur.

"Naxçıvanın səsi" radiosu 248 saat efirdə olmuşdur. Efir müddətində 46 saat canlı yayım proqramları və verilişlər hazırlanaraq dinləyicilərə təqdim edilmişdir. Radio yeni profilinə uyğun olaraq yanvar ayı ərzində təhsillə bağlı proqramlar hazırlamağa başlamışdır. Radionun yeni layihələri – "Təhsilə dair" və "Təhsilin inkişaf yolu" proqramlarında təhsilin inkişaf yolu, tədbiq edilən tədris metodları və qarşıda duran məsələlər geniş müzakirə olunmuşdur.

İş planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlilini də aparmış, bəhs edilən dövrdə sosial şəbəkələrdə Naxçıvanla bağlı 500-dək foto və video, həmçinin xəbər paylaşmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Televiziya və Radio Şurası***

### Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
### *aşağıdakı obyektlərin tikintisi üzrə təkliflər sorğusu elan edir*

1. Şərur rayonunun Çərçiboğan kəndində 540 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
2. Ordubad rayonunun Aşağı Əndəmic kəndində 252 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
3. Babək rayonunun Araz kəndində 88 şagird yerlik ümumi orta məktəb binasının tikintisi.
4. Şərur rayonunun Çərçiboğan kəndində uşaq musiqi məktəbi binasının tikintisi.
5. Ordubad rayonunun Vələver kəndində 198 şagird yerlik tam orta məktəb binasının tikintisi.
6. Babək rayonunun Sirab kəndində 960 şagird yerlik tam orta məktəb binasının tikintisi.
7. Ordubad rayonunun Pəzməri kəndində 66 şagird yerlik ümumi orta məktəb binasının tikintisi.
8. Şərur rayonunun Dərvişlər kəndində 198 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
9. Ordubad rayonunun Dırnıs kəndində 216 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.

***Təkliflər sorğusunun əsas şərtləri:***

– Görüləcək işlərin minimum dəyəri və qısa vaxt əsas meyardır.

– İddiaçının analoji işlərdə təcrübəsi, işin təşkili (kadr potensialı və tikinti texnikası haqqında məlumat) və onların maliyyə vəziyyəti əsas götürülür.

– İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aşağıda qeyd olunmuş hesabına 100 manat məbləğində iştirak haqqı keçirməlidirlər.

***Bankın rekvizitləri:***

Kapital Bank Naxçıvan Muxtar Respublikası Baş İdarəsi

*Bank kodu:* *200015*
*VÖEN:* *9900003611*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*SWİT BİK:* *AIIBAZ2X*

***Komitənin rekvizitləri:***

*Hesablaşma hesabı:*
*AZ84AIIB33040019443100257500*
*VÖEN:* *0200005051*

İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən müvafiq sənədləri 22 fevral 2021-ci il tarixədək ala bilərlər (Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 42)

Təkliflər sorğusu sənədlərinə aşağıdakı ardıcıllıqla göstərilən tarixlərdə baxılacaqdır:

1. Şərur rayonunun Çərçiboğan kəndində 540 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması. 2 mart 2021-ci il saat $12^{00}$
2. Ordubad rayonunun Aşağı Əndəmic kəndində 252 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması. 2 mart 2021-ci il saat $14^{00}$
3. Babək rayonunun Araz kəndində 88 şagird yerlik ümumi orta məktəb binasının tikintisi. 5 mart 2021-ci il saat $12^{00}$
4. Şərur rayonunun Çərçiboğan kəndində uşaq musiqi məktəbi binasının tikintisi. 5 mart 2021-ci il saat $14^{00}$
5. Ordubad rayonunun Vələver kəndində 198 şagird yerlik tam orta məktəb binasının tikintisi. 10 mart 2021-ci il saat $12^{00}$
6. Babək rayonunun Sirab kəndində 960 şagird yerlik tam orta məktəb binasının tikintisi. 12 mart 2021-ci il saat $12^{00}$
7. Ordubad rayonunun Pəzməri kəndində 66 şagird yerlik ümumi orta məktəb binasının tikintisi. 16 mart 2021-ci il saat $12^{00}$
8. Şərur rayonunun Dərvişlər kəndində 198 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması. 16 mart 2021-ci il saat $14^{00}$
9. Ordubad rayonunun Dırnıs kəndində 216 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması. 18 mart 2021-ci il saat $12^{00}$

Təkliflər sorğusu ilə əlaqədar məlumat almaq üçün maraqlı olan təşkilatlar Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-02-28***

## Tibb işçiləri vaksinlə peyvəndlənib



"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq muxtar respublikanın səhiyyə müəssisələrində ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvan Muxar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya fəaliyyət göstərir. Komissiyanın təşkilatçılığı ilə bir neçə tibb müəssisəsində COVID-19 xəstəliyinə qarşı vaksinasiya aparılıb. Peyvənd ilkin mərhələdə risk qrupuna daxil olan səhiyyə işçilərinə vurulub. Cari həftə ərzində isə Ordubad, Şahbuz və Kəngərli Rayon Mərkəzi xəstəxalarının, Gigiyena və Epidemiologiya şöbələrinin, kənd həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin tibb işçiləri təhlükəsizliyinə və effektivliyinə görə seçilən "Sinovac" vaksininə cəlb edilib.

Nazirlik tərəfindən müəyyənləşdirilən xüsusi işçi qrupu tərəfindən Ordubadda 203, Şahbuzda 238, Kəngərlidə isə 142 tibb işçisi üzərində vaksinasiya aparılması zamanı onların səhhətində heç bir problem müşahidə olunmayıb.

Qeyd edək ki, vaksinasiya prosesi iki mərhələdə muxtar respublikanın bütün rayon, şəhər tibb müəssisələrində də aparılacaq. Əsas hədəf epidemioloji vəziyyətin sabitləşdirilməsi, xəstələnmə və ölüm hallarının azaldılmasıdır.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

***Fevralın 10-da Gənclər və İdman Nazirliyinin akt zalında Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında "Xəmsə" Milli intellektual oyunu keçirilib.***

## İntellektual oyun təşkil olunub

"Bəlli", "Şərtli", "Sirli", "Fərdi" və "Xəmsə" raundlarından ibarət olan oyunda ən çox xal nominalı toplayan "Qarabağ" komandası qalib adını qazanaraq kubokun sahibi olub. Oyunda "Mübariz" komandası II, "Cəbrayıl" və "Polad" komandaları isə III yerə çıxıblar.

Qalib komandalara təşkilatçılar tərəfindən diplom, fəxri fərman, oxunması zəruri olan kitablar, həmçinin Azərbaycan və dünya ədəbiyyatı nümunələri təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi $17/34^{A}$ ünvanında Rəhimova İsmət İsrafil qızının adına olan torpaq sahəsinin AA-003972 nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, "Çənlibel" məhəlləsi, bina $14^{a}$, mənzil $12^{a}$ ünvanında yaşamış Əliyev Məmmədtağı Bəhlul oğlunun adına olan 9711 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 129